# Çayçılıq yenidən dirçələn sahədir



*Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni, bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək.*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial-iqtisadi sahə ilə bağlı 31 iyul 2019-cu il tarixli müşavirədə çıxışından**



**Ölkəmizdə pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq, üzümçülük, sitrus meyvəçiliyi və çayçılıqla bağlı qəbul olunmuş dövlət proqramları kənd təsərrüfatının sürətli inkişafını təmin etməkdədir. Bunun sayəsində yüksək əlavə dəyər və kənd yerlərində geniş məşğulluq imkanı yaradılan sənaye təyinatlı və ixracyönümlü sahələrdə yüksək nailiyyətlər qazanılır, kənd əhalisinin həyat səviyyəsi durmadan yaxşılaşır.**

**Aqrar sahənin inkişafında əsas istiqamətlərdən biri çayçılığın artan tələblər səviyyəsinə çatdırılmasıdır. Çayçılıq Azərbaycan kənd təsərrüfatının ənənəvi və gəlirli sahələrindəndir.**

Alimlərin araşdırmaları nəticəsində müəyyən edilmişdir ki, əsas hissəsi Lənkəran iqtisadi rayonunun payına düşməklə ölkədə 21 min hektara yaxın ərazinin təbii iqlim şəraiti, torpaqlarının mövcud vəziyyəti çay bitkisinin becərilməsinə imkan verir. Təəssüf ki, 1990-cı illərdən etibarən ölkədə çay sahələri və istehsalı tədricən azalmağa başlamışdır. Hətta camaata əlavə torpaq sahələri satmağı hədəfləyən bəzi rayon rəhbərlərinin tapşırığı ilə çay kollarının gecələr xəlvəti olaraq yandırılması kimi iqtisadi nadanlıq faktları da olmuşdur. Onlardan bunun səbəbi soruşulanda isə deyirdilər ki, həmin kollar "qocalıb" və lazımi məhsuldarlığı yoxdur. Nəticədə



ölkə üzrə çay plantasiyalarının sahəsi 587 hektara, məhsul istehsalı 545 tona düşmüşdür.

Yaxşı ki, bu vəziyyəti aradan qaldırmaq üçün 2002-ci ildə Azərbaycanda "Çayçılıq haqqında" Qanun qəbul edildi. Ulu öndər Heydər Əliyevin imzaladığı bu qanun çayçılığın təşkilinin, çay istehsalının, emalının və dövriyyəsinin tənzimlənməsinin, habelə çay məhsullarının keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən etdi.

2016-cı ildən başlayaraq çayçılığın inkişafına istehsalçıların marağının artırılması istiqamətində önəmli tədbirlər görüldü. Bunun sayəsində 2017-ci ildə çay plantasiyalarının sahəsi 2010-cu illə müqayisədə 2 dəfə artaraq 1114,3 hektara, məhsul istehsalı isə 42,2 faiz artaraq 775,2 tona çatdı.

Prezident İlham Əliyevin 2018-ci il 12 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin görülməsini nəzərdə tutur. Həmin proqramın tətbiqi ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan çayçılığın inkişafında mühüm nəticələr əldə etməyə imkan verir. Ölkə rəhbərinin 2017-ci il 12 sentyabrın 12-də imzaladığı "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq hazırlanmış bu onillik dövlət proqramı sayəsində çayçılığın inkişafına dövlət dəstəyi gücləndirilmişdir. Bu sahənin imkanlarından səmərəli istifadə edilir, çay istehsalına maraq ilbəil artır.

Dövlət Proqramının məqsədi ölkədə quru çaya olan tələbatın əsasən yerli mənbələr hesabına ödənilməsi, çay emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, çay məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün çayçılığın inkişafını stimullaşdırmaqdan ibarətdir. Dövlət Proqramının icrası nəticəsində 2027-ci ilədək əkin sahələrinin 3000 hektara, yaşıl çay yarpağı yığımının 8,5 min tona çatdırılması nəzərdə tutulur.

"Azərsun Holdinq" Azərbaycanda ən böyük çay istehsalçılarından biridir. Onun ilk investisiya layihəsi 1994-cü ildə Bakıda fəaliyyətə başlamış "Sun Tea" çay fabriki olmuşdur. "Sun Tea" hazırda məşhur çay markalarının istehsalçısıdır. "Sun Tea" qara çay, yaşıl çay, meyvəli çayların istehsalı ilə məşğuldur. Müəssisə illik ortalama 15 min ton istehsal gücünə malikdir. Şirkətlər qrupunun Azərbaycanın cənubunda Lənkəran və Astarada paketləmə müəssisələri də fəaliyyət göstərir.

Azərbaycanın ən seçilmiş keyfiyyətli çay yarpaqlarını emal edərək "Azerçay" markası ilə dünya bazarına təqdim edən müəssisə ölkə çayının şöhrətini bütün dünyaya yayır. Almaniyanın "Heinemann" şirkəti ilə əldə olunmuş razılaşmaya əsasən, üzərində "Made in Azerbaijan" yazısını daşıyan "Azerçay" markası dünyanın 50-dən çox hava limanının "Duty Free" mağazalarında istehlakçılara təqdim olunur, dünyanın aparıcı idman yarışlarında, beynəlxalq tədbirlərdə baş sponsor kimi iştirak edir. Şirkətlər qrupunun Şri-Lankadakı "İnter Tea" müəssisəsi broker olaraq birjalarda ən keyfiyyətli Seylon çaylarını tədarük edir. "Azərsun Holdinq", eyni zamanda, dünyaca məşhur Hindistan, Vyetnam və Keniya çaylarını birbaşa çay istehsalçılarından satın alaraq, emal müəssisələrinin xammal ehtiyacını təmin edir.

**Astarada fermer Nizami Rəsulov uzun müddətdir ki, çayçılıqla məşğul olur. Özünün ayrıca təsərrüfatı var, həm də "Azərsun Holdinq"in rayon üzrə nümayəndəsidir. Onun dedikləri:**

– Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə aqrar sahənin daha da inkişaf etdirilməsi zərurətini önə çəkdi. Dövlət başçısının kənd təsərrüfatını daha da irəli aparmağın, torpaq adamlarına qayğını artırmağın zəruriliyi ilə bağlı fikirləri hamımızın ürəyindən xəbər verdi. Gəlirli sahə olan çayçılığı daha da genişləndirmək əzmindəyik. Çünki Azərbaycanın cənub bölgəsinin bərəkətli torpaqlarında yetişən çay yarpaqları öz tərkibindəki göstəricilərə görə yalnız dünyanın ən keyfiyyətli çayları ilə müqayisə oluna biləcək səviyyədədir. Belə ki, Azərbaycan çayının tərkibində 28-30 faiz əsas keyfiyyət göstəricisi olan tanin, 5-6 faiz kofein, 46-50 faiz ekstratlı maddələr var. Çox nadir halda rəng, ətir və dad eyni vaxtda bir çayda mövcud olur ki, hər üç göstərici də bu çaylarda yüksək səviyyədə mövcuddur. Çay plantasiyalarının dağ ətəyində yerləşməsi ilə yanaşı, eyni zamanda Xəzər dənizinə çox yaxın olması çayçılıq üçün çox münbit və ideal bir şərait yaratmışdır.

Bir neçə il öncə təsis edilmiş "Astaraçay" MMC-də quru çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı plantasiyalardan tədarük olunur. Həmin plantasiyalarda əkilən "Kolxida" çay toxumları Gürcüstanın Batumi şəhərində yerləşən Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən alınmışdır. Toxumlar sınaqdan keçirilmiş, yerli şəraitə uyğunlaşdırılaraq əkilmişdir. Ekoloji cəhətdən təmiz şəraitdə yetişdirilən çayın becərilməsi və emalı zamanı burada heç bir kimyəvi qatqıdan istifadə edilmir. Çay sahələrində Almaniyanın "LACON" şirkəti tərəfindən ekoloji müşahidələr aparılır.

Astara rayonu ərazisində həmçinin Koreya Respublikası şirkətinin layihəsi əsasında da çay fabriki inşa edilmişdir. Ərazisi 5 hektar olan həmin fabrikdə xaricdən gətirilən ən müasir avadanlıq quraşdırılmışdır. Fabrik gün ərzində 10 ton yaşıl çay emal etmək gücünə malikdir. Burada çəkisi 100, 200 və 400 qram olan çay bükümləri hazırlanır. Fabrikdə dəqiqədə 8 çay bükümü istehsal edilir. Astara çay fabriki 2016-cı ildə İSO 9001 və İSO 14001 sertifikatlarına layiq görülmüşdür.

Hazırda Astara rayonunun çay plantasiyalarında bu ilin ikinci məhsul yığımı kampaniyası başa çatıb və üçüncü çay yığımına başlanıb. Rayonda



mövcud olan 187 hektar məhsuldar çay sahəsindən 200 tondan artıq çay yarpağı yığılıb. Qeyd edək ki, ötən il Astara rayonunda 530,2 ton yaşıl çay yarpağı istehsal olunmuş, hər hektardan götürülən məhsuldarlıq 28 sentner təşkil etmişdi.

Lənkərandakı "Yaşıl Çay" MMC-nin 150 hektara yaxın torpaq sahəsi var. 2011-ci ildən başlayaraq burada yüksək məhsuldarlığı ilə seçilən "Kolxida" sortundan ibarət çay plantasiyaları salınıb. 2015-ci ildə - ölkədə elan edilən "Kənd təsərrüfatı ili"ndə ilk dəfə seçmə üsulu ilə yığım aparan "Yaşıl çay" fermer təsərrüfatının sahələrindən bu il daha bol məhsul gözlənilir. Təsərrüfatın ümumi çay əkini sahəsi 61 hektardır. Gələcəkdə isə çay sahələrinin ümumi sahəsi 100 hektara çatdırılacaq. Sahələr Hollandiyadan dəvət olunan mütəxəssislər tərəfindən qurulmuş suvarma şəbəkəsi vasitəsilə çiləmə üsulundan istifadə etməklə suvarılır. Təsərrüfatda xaricdən gətirilən ən müasir texnika və avadanlıqdan istifadə olunur. Plantasiyalara qulluq zamanı kimyəvi vasitələrdən istifadə edilmir. Mineral gübrələr əvəzinə üzvü gübrələrdən daha çox istifadə olunur. Bunun nəticəsində burada yetişdirilən çay yarpağı ekoloji cəhətdən tam təmiz olur.

**Masallı rayonunun Kolatan kəndindən çayçı-fermer Etibar Sadıqov:**

– Qeyd edim ki, Masallının torpaq-iqlim şəraiti az əməktutumlu olan taxılçılıq sahəsini səmərəsiz və əsasən qeyri-rentabelli edir. Amma 1000 hektar çay sahəsində 3000 iş yeri yaranmaqla, 5 milyon manatdan artıq xalis gəlir əldə etmək mümkündür. Məhsulun xarici bazarlara çıxarılması imkanı genişdir. Təkcə ölkənin çaya tələbatı 9000 ton, xarici bazarlara ixrac imkanları bəzi hesablamalara görə, 8000-10000 tondur. Ölkə üzrə çay istehsal isə daxili tələbatın 10 faizini təşkil edir: Əvvəllər rayon ərazisində 3324 hektarda çay plantasiyaları mövcud olub. Çay plantasiyalarından 8492 ton yaş yarpaq toplanıb və rayon ərazisində mövcud olan beş çay fabrikində emal edilərək, 3 min ton quru çay istehsal olunurdu. Hazırda rayon ərazisində 105 hektar çay plantasiyası mövcuddur. Keçən il Masallıda çayçılığın inkişaf etdirilməsi istiqamətində müəyyən işlər görülüb. Belə ki, keçmişdə mövcud olan 5 hektarda çay sahəsi bərpa edilib. Kolatanda "Azərsun Holding" şirkəti tərəfindən 100 hektar çay plantasiyası salınıb. Daha 1000 hektar sahədə çay plantasiyasının salınması nəzərdə tutulub. Bununla əlaqədar müvafiq tədbirlər həyata keçirilir. Belə ki, 550 hektar sahədə çay plantasiyalarının salınmasından ötrü torpaq mülkiyyətçilərindən razılıq alınıb və həmin torpaq sahələrinin xəritə sxemləri hazırlanıb.

Dövlətimizin başçısı qeyd edib ki, çayçılığın inkişaf etdiyi dünyanın aparıcı ölkələrinin təcrübəsi öyrənilməlidir: "O ölkələrdə həm məhsuldarlıq çox yüksəkdir, eyni zamanda, onlar torpağın hər qarışından istifadə edirlər. Dağətəyi ərazilərdə, yamaclarda terras şəklində çay plantasiyaları salınır. Bu, eyni zamanda, sitrus meyvələrinin istehsalına da aiddir. Biz sitrusçuluğu da dağətəyi ərazilərdə, o cümlədən bu ərazilərdə inkişaf etdirməliyik. Müvafiq dövlət qurumları burada yeni çay plantasiyalarının salınması ilə bağlı təklifləri tezliklə verməlidirlər. Əlbəttə, bu plantasiyaların su təminatı da təşkil edilməlidir. Davamlı su təminatı olmalıdır. Dünyanın ən qabaqcıl texnologiyaları tətbiq edilməlidir… Biz ən qabaqcıl texnologiyaları tətbiq etsək, məhsuldarlığı bir neçə dəfə artıra bilərik. Bu, onu deməyə əsas verir ki, biz hətta məhdud olan torpaq sahələrində keyfiyyətli və böyük həcmdə çay istehsalına nail ola bilərik".

Bir daha qeyd edək ki, elə iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilmiş müşavirədə də bu sahənin inkişafı zərurəti xüsusi vurğulanmış, qarşıda duran vəzifələr diqqətə çatdırılmışdır. Göründüyü kimi, Azərbaycanda çayçılıq genişlənir və gözəl perspektivlər vəd edir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***